**Fərdi məlumatların əldə olunmasına və istifadəsinə dair**

**Razılıq ərizəsi**

Bu sənədi imzalamaqla təsdiq edirəm ki, **bank xidmətlərinin göstərilməsi/bank əməliyyatlarının həyata keçirilməsi məqsədilə** müvafiq informasiya sistemləri ("Digital Finance" və s.) vasitəsilə şəxsiyyəti təsdiq edən sənəd *(şəxsiyyət vəsiqəsi, müvəqqəti yaşayış icazəsi və ya şəxsiyyəti təsdiq edən digər sənəd)* üzrə müəyyən olunan məlumatların *(sənədin FİN-i, seriya və nömrəsi, ad, soyad, ata adı, qeydiyyat ünvanı, sənədi verən orqanın adı, sənədin verilmə və bitmə tarixi, cins, doğum tarixi və yeri, ailə vəziyyəti, vətəndaşlığı)*, iş yeri üzrə müəyyən olunan məlumatların *(o cümlədən iş yeri, vəzifə, əmək müqaviləsinin tipi (müddətli və ya müddətsiz), əmək müqaviləsinin bağlanma və bitmə tarixi, iş yerinin növü (əsas və ya əvəzçilik üzrə), əmək haqqının məbləği)*, habelə pensiya, müavinət, təqaüd və kompensasiya ilə bağlı məlumatların (pensiyanın, sosial müavinətin, təqaüdün, digər sosial ödənişlərin *(kompensasiya, ünvanlı sosial yardım) növü, məbləği, başlanma və bitmə tarixləri, əlilliyə görə pensiya, sosial müavinət və ya təqaüd alan şəxsin əlilliyinin səbəbi (diaqnozları), müddəti)*, ailə vəziyyəti, özünə və ailə üzvlərinə dair müvafiq məlumatların *(ailə üzvlərinin (vəfat etmiş şəxslər də daxil olmaqla) ad, soyad (həmçinin nikah bağlandıqda və ya pozulduqda), ata adı, qohumluq tipi, milliyəti, rolu, doğulduğu yer və tarix, nikahın qeydə alınması və ya pozulması barədə məlumat, şəhadətnamələrin (nikahın bağlanması, pozulması, doğum və ölüm haqqında) seriyası, tarixi, nömrəsi və verən qurum, vəfat etmiş şəxslərin vəfat tarixi və səbəbi)*, hüquqi şəxsə və ya fərdi sahibkarlara aid məlumatların *(hüquqi şəxs və ya fərdi sahibkar olması, hüquqi şəxsin adı, hüquqi ünvan, filial və ya nümayəndəliyin hüquqi ünvanı, VÖEN, hüquqi şəxsin və ya fərdi sahibkarın qeydiyyata alınma tarixi, hüquqi şəxsin və ya fərdi sahibkarın qeydiyyat məlumatlarında dəyişiklik edilmə tarixi, hüquqi şəxsin statusu, qanuni təmsilçisinin adı, soyadı, atasının adı)* lakin, bununla məhdudlaşmayaraq müvafiq bank məhsulunun/xidmətinin əldə edilməsi üçün tələb olunan bütün digər məlumatların *(telefon nömrəsi və elektron ünvanı, yaşadığı və olduğu yer, ixtisası, şəkli və* s.), həmçinin vəfat halında səlahiyyətli olmayan şəxslər tərəfindən ödəniş hesablarıma sərəncam verilməsinin qarşısının alınması *(hesabların/ödəniş alətinin bloklaşdırılması yolu ilə və s.)* məqsədilə zəruri məlumatların *(vəfat tarixi və səbəbi)* ABB-ə təqdim olunmasına razılıq verirəm.

Bu sənədlə həmçinin, mənə/hüquqi şəxsə məxsus əmlak/vəsait barədə məlumatların ABB tərəfindən digər kredit təşkilatlarından əldə edilməsinə dair razılıq verirəm.

Bu sənədi imzalamaqla təsdiq edirəm ki, bu əməliyyat çərçivəsində imzalanan müvafiq sənədlər üzrə tərəfimdən ABB-ə təqdim edilən və ya ABB tərəfindən müvafiq informasiya sistemləri və ehtiyatlarından əldə edilən bütün məlumatların, habelə hesab və ödəniş əməliyyatları üzrə məlumatların **əlavə razılıq alınmadan** ABB tərəfindən analitika, monitorinq, tələb hüququnun güzəşti, Bank qarşısında olan öhdəliklərimin icrasının təmin edilməsi, marketinq, müştəriyə əlavə xidmətlər (o cümlədən də konsiyerj xidmətləri) göstərilməsi və qanunvericilikdə qadağan olunmamış digər məqsədlər üçün təhlil və emal edilməsinə, işlənməsinə, ümumiləşdirilməsinə, özünün törəmə müəssisələrinə və digər partnyorlarına, Bankın tələb hüququnun güzəşt edildiyi şəxslərə, aidiyyəti dövlət orqanlarına (qurumlarına) və onların vəzifəli şəxslərinə təqdim

edilməsinə, transsərhəd qaydada ötürülməsinə, müvafiq qaydada saxlanmasına və qanunvericiliklə qadağan edilməmiş digər tədbirlərin görülməsinə razılıq verirəm.

Bu razılıq 10 il müddətinə, lakin müvafiq bank xidmətindən istifadə müddətindən az olmamaqla qüvvədədir. Razılığın yazılı müraciətimə əsasən, o cümlədən elektron kanallar vasitəsilə vaxtından əvvəl, lakin qanunvericiliyə əsasən Bank tərəfindən fərdi məlumatların dövri olaraq sorğulanmalı olduğu hallar istisna olmaqla, geri götürülə bilməsi imkanı mənə izah olundu.

Bu sənədi imzalamaqla təsdiq edirəm ki, müxtəlif məhsullara dair kampaniya və reklam xarakterli məlumatların (SMS, bildiriş, e-mail və s. elektron formada) ABB tərəfindən mənə göndərilməsinə razılıq verirəm.

Bu sənədi imzalamaqla təsdiq edirəm ki, mənə aid bütün məlumatların (fərdi məlumatlar və bank sirri məlumatları da daxil olmaqla) tərəfimdən üçüncü şəxslərə təqdim edilməsi və ya ABB-nin təqsiri olmadan üçüncü şəxslər tərəfindən hər hansı formada əldə edilməsi nəticəsində dəymiş (dəyə biləcək) zərərə, eləcə də bütün növ maliyyə itkilərinə görə bütün riskləri və məsuliyyəti öz üzərimə götürürəm.

Bu sənədi imzalamaqla təsdiq edirəm ki, hüquqi şəxsə aid bütün məlumatların (kommersiya və bank sirri məlumatları da daxil olmaqla) hüquqi şəxs tərəfindən üçüncü şəxslərə təqdim edilməsi və ya ABB-nin təqsiri olmadan üçüncü şəxslər tərəfindən hər hansı formada əldə edilməsi nəticəsində dəymiş (dəyə biləcək) zərərə, eləcə də bütün növ maliyyə itkilərinə görə bütün riskləri və məsuliyyəti hüquqi şəxs daşıyır.

Bu razılıq əsasında əldə edilmiş məlumatlar müvafiq xidmətdən istifadə/bank əməliyyatlarının həyata keçirilməsi müddəti ərzində, habelə həmin xidmətə/əməliyyata xitam verildikdən sonra, eləcə də bu razılığın 1-ci abzası nəzərə alınmaqla razılıq verən şəxsin ölümü/hüquqi şəxsin ləğvi halında arxivləşdirilməklə qanunvericiliklə müəyyən edilmiş müddət ərzində saxlanılır, qeyd olunan müddət bitdikdən sonra isə müvafiq məlumatlar məhv edilir.